# Məşhur yakut yazarı Yelena Kuorsunnax:
# "Anladım ki, belə yaşamaq çətin olacaq"

*Aida Eyvazlının təqdimatında*





(əvvəli ötən sayımızda)

**- Sizin həm də gözəl səsiniz, yakutlara məxsus səs tembriniz, oyukunuz vardır. Bu səs haradan gəlir? Bayaq süfrə başında mənim üçün gözəl mahnılar oxudunuz. Siz oxuyanda mən bizim gözəl avazı olan Fatma Mehraliyevanın, Rubabə Muradovanın səsini eşitdim elə bil. Həm də bir azca da həsrət, hicran var səsinizdə... Nədir bu həsrət, bu müəmmalar?**

- Mən bayaq sizə babamdan danışdım axı... Anam Anastasiya babamın kiçik qızı olub. Atam Vasiliy ilə anam evləndikdən sonra babam onların yanına köçür. Mənim 10-12 yaşım olanda onun 100 yaşı var idi. Gözlərinin işığı sönənə qədər bizim aymakda (oymaqda) o həm zərgər, həm də dəmirçi kimi məşhur olub. Qızıl, gümüş, hər növ dəmir onun əlində min cür gözəlliyə dönürdü. Özündən naxışlar icad edirdi. Mən bunları lap böyüyəndən sonra anladım. Babam Sofron da, atam Vasiliy də olonxoust idilər. Bizim kəndin adamları Osuoxaya yığışırdı tez-tez. (osuoxay - elliklə rəqs etmək deməkdir. Bu rəqsi ifa edərkən 100 nəfərdən 1000 nəfərə qədər əl-ələ verib, dövrələmə gedirlər. Əsas oxuyan adam olonxoustdir. O, bənd-bənd, sətir-sətir mahnılar deyir, ətrafdakılar da təkrar edirlər. Bizdə bəzi bölgələrdə oxunan haxıştalar kimi – red.). Mən özümdə olan hər şeyə görə babam Safrona borcluyam. O bütün vaxtını mənimlə əylənməyə sərf edirdi. Gah mahnı oxutdurur, gah da hansısa Olonxodan (dastandan) parçaları əzbər söylətdirirdi. Evimizə qonaq gələndə mən mütləq onlar üçün ya şer söyləməli, ya hansısa əsərdən parça ifa etməli, ya da oyuku oxumalıydım. Mənim atam Xalq və el mahnılarının, toyukuların mötəbər ifaçısı idi. Bildiyiniz kimi belə mahnıları ancaq kılısı - boğaz səsi olan adamlar oxuyur. O, səsi ilə insanları sehrləyirdi, mən də onun mahnılarını dinləməyi elə sevirdim ki, elə bil ana laylası idi. Mən mahnı oxuyanda atamı yamsılayırdım. Bir də görürdün ki, aymakdakı qonşularımız bizə gəliblər. Əsil ədəbiyyat və incəsənət məclisi yaranırdı. Bəzən də kəndin balaca uşaqlarını babam və atam evə toplayar, bizə səhnəciklər qurardılar. Babamın əlində həmişə tənbəki ilə dolu müştük olardı. Onun çəkdiyi tənbəkinin tüstüsü heç gözümün qabağından getmir. Bir də monoton səsi var idi. Nənəm də bizim üçün şirniyyatlar bişirərdi. Tüstünün və şirniyyatların ətri evimizə yayılardı. Anamın da gözəl əl qabiliyyəti var idi. O da bir tərəfdə oturub bəzəkli tikmələr tikərdi. Elə bil ki, şaxtanın pəncərələrimizə çəkdiyi naxışları anam da ağ qar rəngli parçaların üzərinə köçürərdi. Biz uşaqların səhnəcikləri hazır olanda böyüklərin qarşısında çıxış edərdik. Uşaqlığımın hər günü yadda qalan olub. Böyüdüyüm bu yaradıcı mühit məni yaratdı, desəm, səhv etmərəm. Mənim ata babam Platon Oyunskinin əsərləri 60-cı illərə qədər qadağan olunmuşdu. Bibim Sardana Oyunskaya babama bəraət alandan sonra, onun əsərlərini üzə çıxardılar. Ana babam Safron isə onun əsərlərinin çoxunu əzbər bilirdi. Gözləri görmədiyinə görə həmin kitabları yenidən mənə oxudurdu. O əsərlərin içərisində Platon Oyunskinin qələmə aldığı "Olonxo" var idi. Və mən hələ uşaq ikən anlamağa başladım ki, əgər insan kiçik yaşlarından Olonxo aləmini bilmirsə, böyüdükdən sonra Olonxonu, xalq ədəbiyyatını ona sevdirmək çətin olacaq. Bu ədəbiyyat da öz qapılarını hər istəyənə açan deyil. İllər keçəndən sonra bibim Sardana Platonova Oyunskaya mənə dedi ki, "Rəşadətli Nurgün Batır" əsərini yeni tərtibatla, uşaqlar üçün çap etməliyik. Mən bu əsərin üzərində 6 il əmək sərf etdim. 201 hekayə və 60 illüstrasiyadan ibarət kitabı tərtib elədim. Mən bu kitabla yaşadım. Oradan su içdim, şirə çəkdim. Özüm də bilmədən, bir də gördüm ki, ədəbiyyat artıq ömrümün bir parçasına çevrildi.

**- Ədəbiyyata ilk gəlişiniz necə olub?**

- Mən ilk dəfə ədəbiyyata şeirlə gəldim. Sonra isə doğmalarımın ruhu məni ədəbi əsərlər yaratmağa yönəltdilər. 2004-cü ildə çıxan ilk kitabımın adı "Annanın taleyi" idi. Nənəmin həyatından yazmışdım. Gimnaziyada təhsil alan gözəl və gənc bir qızın qardaşlarını həbs edirlər, bundan sonra onu gimnaziyadan qovurlar. O, peşiman, arzuları darmadağın olmuş halda kəndinə qayıdır. Burada da onu heç kim gözləmir. Çünki Anna artıq xalq düşmənlərinin ailəsini təmsil edirdi. Oktyabr inqilabı Annanın xoşbəxt həyatını, gəncliyini, yurdunu əlindən alır. Povestim elə ilk günlərdə mənə uğur gətirdi. Oxucular əsərin davamını istəyirdilər. Çünki məndən əvvəl repressiya qurbanlarının adını çox az yazıçı çəkmişdi. Eləcə də mənim sələflərim, mənə yazıçılıq yolumda cığır açan Natalya Xarlampyeva, Nikolay Yeqoroviç Vinokurov məsləhətlər verdi, dramaturq Vasiliy Yeqoroviç Vasilyev-Xarısxal "Annanın taleyi" povestimi Saxa Akademik Teatrında səhnələşdirdi. Mən atrtıq əmin idim ki, öz nəslimin, şəcərəmin taleyi xalqım üçün çox lazımdır. Ona görə də axtarışlarıma davam etdim.

**- Bir əsəri yazmağa nə qədər vaxt sərf edirsiniz?**

- Bəzən bir romanı 10 ilə yazıram. Məsələn, " Aan Tala" –" Göylərin tufanı" tarixi romanım vətənimin azadlığı, varlığı, quruculuğu üçün canından keçən fədakar insanlarımızdan bəhs edir. Bu kitabı yazmaqla mən həm qan qohumlarımın, həm də repressiyaya uğrayanların qarşısındakı borcumu vermiş oldum. Tarixin qırılmış səhifələrini mən muncuq-muncuq topladım, hadisələri, sənədləri bir-birinə uyğunlaşdırmaq üçün nə qədər axtarış apardım. XIX-XX əsrin yakut dövlətini yaradan ziyalılarının həyatını kitabxanalarda, arxivlərdə ələk-vələk elədim. Gizlinlərin üzərinə işıq salmağa çalışdım. Bu işi sona çatdırmağa mənə ömür-gün yoldaşım Andrian Vasilyeviç Lukin ən yaxın sirdaş və köməkçi oldu. O bu romanın doğulmasını 10 il gözlədi. Mən evdə ancaq yazdığım kitabın qəhrəmanları ilə yaşadım. Onlarla süfrə başında çay içdim, onlarla danışdım, onlardan bəhs edən kitablarla yatıb-durdum. Məhkəmə proseslərini öz evimdə qurub bəzən hakim oldum, bəzən müqəssir, bəzən də qalib. O qəhrəmanlarımın içərisində elələri var idi ki, onlara vuruldum, dəli kimi sevdim, başlarına gətirilən hadisələrə ağladım, sızladım, yandım, əzablar çəkdim. Məhkəmələrində səsim gəldikcə vəkil kimi bağırdım ki, ay hakim, niyə belə qərar verdin, niyə onların ömrünü yarımçıq qoydun... Mən 19-cu əsrin sonlarında, 20-ci əsrin əvvəllərində yaşadım. Bəzən aylarla evdən çıxmadım. Qorxdum ki, evdən çıxsam hər hansı süjet xəttini itirə bilərəm. Sonuncu nöqtəni qoyandan sonra isə içərimdə bir boşluq var idi. Bir səhər çağı 10 il mənimlə olan bütün dostlarım məni tərk etmişdilər. Özümü qınadım ki, axı mən onları başıma niyə yığırdım ki, onlar da məni belə tərk edirdilər... Sonra anladım ki, belə yaşamaq çətin olacaq. Yenə Andrianın köməkliyi ilə adi həyata qayıtdım. Axı mən və digər dəyərli yazıçılarımız bunu etməsəydilər, bugünkü nəsil onların adını sovet rejiminin vurduğu "qara ləklə"lərlə tanıyacaqdı. Bəlkə də heç tanımaq istəməyəcəkdilər. Lakin bu gün bizim dövlətimizdə, cəmiyyətimizdə, hamı bu dövləti - Saxa Yakutiya Muxtar Respublikasını quranları tanıyır. Və onların başında mənim və türk dünyasının fəxr etdiyi Platon Alekseyeviç Sleptsov- Oyunski dayanır.

**- 27 aprel 1922-ci ildə Yakutiya Muxtar Respublikasının yaranması ilə bağlı fərman qüvvəyə minib. Və bu Respublikanın yaranmasının Manifestinə imza atan ilk dövlət xadimi sizin babanız Platon Alekseyeviç Sleptsov-Oyunski olub.**

- Mənim üçün həmin gün şərəfli tarixdir. Bu gün qoynunda gəzdiyim torpağın, Vətənin bizim əlimizdən getməməsinin səbəbkarı babam və onun silahdaşları olublar. Mücadilələr, zindanlar olub nəsibləri. Babamın məzarı yoxdur, adı var, heykəlləri var, həbsdən xilas olmuş kitabları var. Babamın və silahdaşlarının qurduqları dövlətin təməli o qədər möhkəm idi ki, 1991-ci ilə qədər yaşadı. 1991-ci ilin 24 dekabrından etibarən isə Saxa Yakutiya Respublikası adlandırıldı. Mən çox xoşbəxtəm ki, indi Vətənimin dövlət kimi var olmasının 100 illiyini qeyd edirik. Bizim arzularımız çoxdur, onların hamısına çatacağıq. Bir də ki, müsahibəmizin sonunda Aida xanım, sizə xüsusi minnətdarlığım var. Mənim babam, yakut xalqının möhtəşəm oğlu Platon Oyunskini türk dilinə ilk dəfə siz tərcümə etdiniz. Azərbaycan və türk dillərində babamın əsərləri danışdı. Bu bizim üçün böyük xidmətdir. Platon Oyunskinin əsərləri türk dünyasında yeni üfüqlər, yeni cığırlar açacaq. Bütün türkdilli xalqlar Saxa Yakut yurdunu quranları, yaradanları tanımalıdır. Bizim ədəbiyyatımız çox zəngindir. Çünki kökümüzü, indentikliyimizi unutmamışıq.

Əziz oxucularımız, söhbətimizin sonunda Elena Sleptsova Vasilyevna–Kuorsunnax haqqında bu qısa arayışı da yazıram: Elena Sleptsova 14 iyun 1964-cü ildə Yakutiyanın Tattı Ulusunun Çerkex kəndində doğulub. M.K.Ammosov adına Yakutiya Dövlət Universitetini bitirib. 19 şer və nəsrdən ibarət kitabın müəllifidir. Saxa Yakutiya Respublikasının əməkdar artisti, P.A.Oyunski adına Dövlət Mükafatının və N.E.Mordinova adına "Uşaq ədəbiyyatı" mükafatının laureatıdır. Böyük Vətən Müharibəsinin 75 illiyinə həsr olunmuş ədəbiyyat müsabiqəsinin Qran Pri laureatı, Yakutiya və Rusiya Yazıçılar Birliyinin Namjila Numbuyeva Beynəlxalq şer turnirinin Qran Prisinin sahibidir. Onun şerlərindən ikisi ilə oxucularımızı tanış edəcəyəm. Bu şeirləri də mən- Aida Eyvazlı tərcümə etmişəm.

## Qara paltar

**Ah, bu qara paltar nəyimə gərək?
Onu ki, bayramda geyməyəcəyəm.
Rəngi qaradır...
O mənim rəngimi boğur,
O məni dərdli göstərir
O məni dərdə bürüyür...
Rəngi qaradır...**

**O tarixdən bir qərinə keçibdir,
Uçulubdur dirəklərim,
Evimizin qapıları,
evimizin divarları uçulubdur...
Hər uçqunda bir balta səsi var,
Bir də qara paltar rəngi...**

**O paltarın rəngi qaradır...
Lakin biliriəm ki,
Bir gün gələcək
Mən də bəyazdan tikilən
ağ paltarımı geyinəcəyəm...**

**Sonra da
bütün paltarlarımın ətəklərindən
Qara kaymaları götürəcəyəm ...**

## Şairlər sevəndə...

**Şairlər sevəndə başqa cür sevir,
Onların sevgisi tanrıdan gəlir.
Tayqa da oxuyur, çaylar da daşır,
Təbiət danışır şeir dilində,
Təbiət danışır şair dilində.**

**Şairin ilhamı qovur başından
Bütün qovğaları, çətinlikləri.
Şairlər sevəndə qayğısız olur,
Yaşıl ormanlarda, Göy Səmalarda
Ruhu pərvaz edir dərinlikləri.**

**Şair ağlayanda başqa cür ağlar,
Onun göz yaşları torpağı yuyar.
Şair ağlayarsa, göylər qaralar,
Dolu buludlardan yağmurlar yağar.
Şairlər ağlasa tufanlar qopar,
Şairlər nicatı sevgidə tapar.**